

*Qərib MEHDİ*

# HƏMİŞƏYAŞIL KARANDAŞ

"Bir ümidin ətəyindən tutub da fırlan". Bu misra, itkisinə bu gün də göynədiyimiz Məmməd Arazın misrasıdır. Kimə deyilib, kimə tuşlanıb bu misra? Özünə və bizə? Dünya başını bulayır: "Ola bilsin ki, sizin də payınız var. Ancaq sözün birbaşa hədəfi mənəm". O məşum gündən düz bir il keçir. Düz bir ildir ki, dünya bir ümidin ətəyindən tutub da fırlanır. Fırlanır ki, bəlkə əvəz qaytara... Fırlanır ki, bəlkə insanlığa, sənətə yeni bir Məmməd Araz bəxş edə... Çətin məsələdir. Bu sevda yüz il boyunca başa gələ, ya gəlməyə... Xalq şairi Rəsul Rzanın itkisinə, boş qalmış yerinin görüntüsünə verdiyi qiymət eynilə özünə də aiddir:

Bu il "Sabir günləri"nə gəlmədi Rəsul, Hər ocağa bu xəbərin ayazı yetdi. Avazıdı qara torpaq, qaraldı ağ su, Zaman bir də çətin doğa o planeti.

Tale həyatın acılı-şirinli hər üzünü ona göstərdi. O, xeyirxahlığı, vədinə sadiqliyilə seçildi. O, qələm-kağız-söz üçlüyünün Füzuli möcüzəsini yarada bildi. El ağzı ilə desək, şümşad kimi bir oğlan idi: həm dəlicəsinə oxundu, həm də dəlicəsinə sevildi. Vaxt oldu, çoxları tərəfindən axtarıldı, vaxt oldu, çoxları tərəfindən unuduldu. Həmişə Tanrı nəzərindəydi. Ali Yaradan onu xoşbəxt yaratdığı kimi, ağır sınaqlara da çəkməyi özünə sığışdırdı. Layiq olduqlarını vaxtında ala bilmədi. Mümkün qədər onu kənarda saxlayırdılar. Çünki qələmi də dili kimi doğru danışmağa öyrənmişdi. Ancaq şöhrət çələnginin gəlişini sonadək saxlaya bilmədilər. Xalq şairi oldu, "İstiqlal" ordeni, Dövlət mükafatı ilə təltifləndi. Adına ədəbi mükafat təsis etdilər. (Bəxtəvərəm ki, mən də o mükafata - "Məmməd Araz mükafatı"nın ilk alanların sırasındayam). Bu nailiyyətləri çətin də olsa, təkrarlamaq mümkündür. O, sağ ikən çoxlarına nəsib olmayan əlçatmazlığa yüksəlmişdi. Yəni, sənətdaşları üçün obraz, mövzu mənbəyinə çevrilmişdi. Necə ki, mövzu işləyən, obraz yaradan Ü.Hacıbəyov, H.Cavid, C.Cabbarlı, S.Vurğun, R.Rza, S.Bəhlulzadə, Ə.Kərim həm də başqaları üçün obraz, mövzu mənbəyidirlər. Fikirləşirəm: görəsən, heç ondan inciyən olubmu? İnanmıram. Əlbəttə, qələmi çox kreslo sahiblərini lərzəyə salıb. Həlelik söhbət şairin şəxsi keyfiyyətlərindən gedir. İstiqanlılıq, gerçəkçilik, ədalətlilik, haqlı arxasıza əl uzatmaq keyfiyyətləri və iri, qatı kölgələrdə ərimənək əzmi M.Araz mənəviyyatının, insanlığının məhək daşıydı. Tərcümeyi-halım az da olsa, onunla bağlı xatirələrlə fəxrlənib. "Ulduz" jurnalının ilk nömrəsində təmsil olunmaq səadəti ("İşıq" hekayəmlə) mənə nəsib olub. Sədası yaxşı çıxan, tez bir zamanda səhnələşdirilib televiziyaya ayaq açan o hekayədən sonra dərgidə yerimi, ədəbi ərazimi genişləndirmək həvəsinə düşmüşdüm. Və bu məqsədlə də ora "Əlifba kitabı" povestimi təqdim etmişdim. Povestdə Sovet quruluşuna "yaylığa bükülü" daşlar atılırdı. Rəddetmə məsələsində birbaşa direniş yox idi. Ağlıma batmayan iradlar söyləyir, düzəlişlər tələb edirdilər. Üstəlik redaktor məni rusca qədərindən artıq mütaliədə suçlayırdı. Guya özgədilli ədəbiyyatın təsiri mənim yazımda özünü qabarıq hiss etdirirdi. İçimdə redaktora gülür, öz halıma acıyırdım. Halbuki, mən rusca bir cümləni əməlli-başlı qurub danışa bilmirdim. Hiss edirdim ki, fikir söyləyənlər əsərə ordan-burdan baxıblar. Arxasız əyalət yazarına bundan artıq nə münasibət ola bilərdi?! Məqsəd aydın idi. Onlar məsələni uzadır, istəyirdilər ki, redaksiya işçilərini "pis adam" hesab etmədən yazımı özüm könüllü surətdə geri götürüm. Bütün bunların hamısı redaktorun fikrinə uyğunlaşdırılmışdı. O vaxtlar M.Araz "Ulduz"da məsul katib işləyirdi. Təslim olmaq istəmirdim. Hələ hər şey tükənməmişdi. Hələ "Məmməd Araz" adlı son ümid yerim varıydı. Məsələnin nə yerdə olduğunu, öz narahatlığımı bütünlüklə məsul katibə bildirdim: "Məmməd müəllim, başa düşürəm ki, vaxtınız dardı, yol üstəsiniz. Bununla belə, artıq dərəcədə xahiş edərdim ki, vaxtdan vaxt ayırıb mənim yazıma baxasınız". Yol üstündə olan məsul katib dedi: "Qərib, həqiqətən bu məqamda vaxtım yoxdur. Mən Krıma istirahətə gedirəm. Narahat olma, povestini götürüb orada oxuyaram. Gələndə fikrimi söyləyərəm". Hərəkətimdən utandım. O, dincəlməyə, sağlamlığının qayğısına qalmağa, özünə yaradıcılıq imkanı əldə etməyə gedirdi. Mən isə israrla onu yükləməyə çalışırdım. Sonra məlum oldu ki, o məndən başqa bir neçə müəllifin də yazılarını özü ilə aparırmış. Heyrətlənməyə bilmədim: sən bir qayğıya bax, ilahi!.. Gedişindən bir həftə keçmişdi. O, geri dönmək zamanına qədər dözməyib Krımdan mənə məktub göndərdi. M.Araz uğurlu əsər yazdığıma görə uzaq diyardan məni təbrik edirdi. Sevincimdən qanad açıb uçmaq istəyirdim. Yəqin ki, mənim yaşadığım belə xoş anları başqalarına da bəxş etmişdi. Bax Məmməd Araz belə insan idi. O, vaxtının, yaradıcılığının, başlıcası, səhhətinin hesabına Azərbaycanın yaradıcı gəncliyi üçün örnək olası işlər gördü. Əlbəttə, şairin müsbət fikrindən sonra müqavimət dayandırıldı və "Əlifba kitabı" povestim "Ulduz"un səhifələrində işıq üzü gördü. Onu da deyim ki, məsul katibin zəhməti hədər getmədi, bu yazım da sədalı oldu. Zaman keçdikcə şairlə ünsiyyətimiz istiləşirdi. O, sənətə baxışı, cəsarəti, alacağı zərbəyə əhəmiyyət vermədən gerçəkliyə can atması, orijinal deyim tərzi ilə çağdaş poeziyamıza yeni ab-hava gətirmişdi. Ürəyimdən xəbər verən bu vətəndaş-sənətçi mövqeyi məni ona daha da yaxınlaşdırırdı. Yeri düşdükcə, fürsəti fövtə vermirdim. Ünlü şairimiz dəfələrlə Gəncədə qonağım oldu. Birlikdə füsunkar dağlar gözəli Göy gölün seyrinə daldıq. S.Vurğun haqqında yazdığı şeirin əlyazmasını yadigar olaraq mənə bağışladı. Xatirə şəkil çəkdirməyi unutmadıq. Köməksizlərin layiqli yazılarının çapı xahişində bulundum, əməl etdi. Bir süfrə başında oturmaq,

## MƏKTUB

**Hörmətli redaksiya, salam!**

**"Ədalət" qəzeti mənə təsisçi, tələbə ikən "Rast" povestimin qərəzli tənqidinə qarşı sovet sıxaclarından ehtiyatlanmadan etiraz səsini ucaldan Aqil Abbas, baş redaktor, Məmməd Araz yadigarı İradə xanım Tuncay və baş redaktorun müavini, redaksiyanın yorulmaz "yazı maşını" Əbülfət Mədətoğlu imzaları ilə əzizdir. Sevgimi etiraf etmək mənə xoş olardı.**

**2016-cı ilin yubilyarlarından (80 yaş) biri də mənəm. "Üstün" statusumdan istifadə edərək sizə hamının sevdiyi nadir istedad, orijinal üslub sahibi, vətənçi poeziyamızın bayraqdarı Məmməd Araz haqqında xatirələrimi göndərirəm. Onun vaxtilə xeyirxah əli mənə doğru uzanmasaydı, yəqin ki, indi bu məktubu sizə yazmaq imkanında olmayacaqdım. Əməlləri yaşayanın ruhu şad olur.**

**Bu xatirələr M.Arazın həyatına tanış olmayan bir bucaqdan işıq saldığı üçün oxuculara maraqlı görünə bilər. Çap amacı ilə yazımı "Ədalət"in ədalətli ünvanına göndərirəm.**

**Dərin hörmətlə: Qərib Mehdi,**
**Məmməd Araz mükafatı laureatı,**
**03 may, 2016, Gəncə şəhəri.**

bir tikə çörək kəsmək təklifimdən imtina etmədi. Hər xoş gününü, yubileyini Gəncədən teleqramla təbrikləməyi özümə borc bilirdim. Rəhbəri olduğum "İlham" ədəbi birliyi iki qüdrətli şairin - R.Rza və M.Araz sənətkarlığının haləsində yetişirdi. İş o yerə çatmışdı ki, hətta mən özüm də nəsrdən soyuyaraq onların təsiri altında yenidən poeziya aləminə qayıtdım. Nəinki qayıtdım, üstəlik, M.Araza həsr olunmuş müsabiqədə aşağıda oxuduğunuz ikihissəli şerimlə bir şair kimi iştirak etdim.

### ARAZ - MƏMMƏD ARAZ

**Mən sənə bir şair,**
**Sən mənə Araz de.**

*Məmməd ARAZ.*

**1.**

**Araz da bir çaydı, Məmməd Araz da,**
**Araz da şairdi, Məmməd Araz da -**
**Axırlar... Fikir ver, bir anlıq, suya.**
**Nə deyim duruluq eşqilə yanan**
**Durula bilməyən bulanlıq suya.**

**Damdı ürəyimə - tanrım, nə damdı!..**
**Bölündüm yarıya - qanım nə damdı!..**
**Yüz dəfə, min dəfə yaman adamdı -**
**Bir dəfə eləyən yamanlıq suya.**

**Belə istək olmaz, məhəbbət olmaz,**
**Belə insaf olmaz, mərhəmət olmaz,**
**Belə peşkəş olmaz, səxavət olmaz,**
**İki "can" verdilər, bir canlıq suya.**

**İki tale yazan lənətə gəlib,**
**İki doğma qardaş möhnətə gəlib,**
**İki həsrət sahil minnətə gəlib,**
**Sərhəd nişanəli hicranlıq suya.**

**Girir yuxulara aydınlıq kimi,**
**Nuruna qərq edir bütün aləmi.**
**Töhfəsi İŞIQDIR! Buna görəmi**
**Əvəz qaytardılar QARANLIQ, suya.**

**Nə vaxt Bakım olar, nə vaxt Təbrizim?**
**Nə vaxt mənli olar, nə vaxt mənsizim?**
**Nə qədər soruşum, nə qədər verim,**
**Bir qanlıq sualı, bir qanlıq suya?!**

**Pozu var həmişə əyri yazıda,**
**Dar gündə qılıncdı şeir də, saz da.**
**Qərib də qurbandı, Məmməd Araz da,**
**Tarixin hökmünə qurbanlıq suya.**

**2.**

**Ulduz-ulduz səpələnib,**
**Divarlarda cərgələnib,**
**Ev-ev artıb, şəhərlənib,**
**Vətən daşı - Məmməd Araz.**

**Bal arısı ormanımın,**
**Qarışqası xırmanımın,**
**Haqq döyüşlü zamanımın**
**Vətəndaşı Məmməd Araz.**

**Dəyirmanı söz dənimin,**
**Gözü torlanıb çənimin,**
**Araz çatlı Vətənimin**
**Vətən yaşı - Məmməd Araz.**

**Yəhərlidir şöhrət atı,**
**Boğçada yatır baratı,**
**Ən müqəddəs mükafatı:**
**Vətən qaşı - Məmməd Araz.**

**Şirin yalan qucaq-qucaq,**
**Könül - doğru sözə ocaq.**
**Olmayıbdı, olmayacaq,**
**Vətən naşı, Məmməd Araz.**

**Ana sözü - oğul toyu,**
**Dərdə biçimlidir boyu,**
**Təki desin ömrü boyu**



**Vətən: "daşı, Məmməd Araz".**

**Bulanıq sular durular,**
**Dəmir sərhəd körpü olar,**
**Vüsal günü Vətən çalar,**
**"Vətən marşı!", Məmməd Araz.**

Gözlədiyim kimi qaliblər sırasında yer aldım. Necə? Bu barədə yazıçı-jurnalist Əhməd İsayevin haqqımda söz açdığı "Qoşa qanad" yazısına müraciət etməyə ehtiyac duydum: "Arada bir hadisə baş verdi, qoy onu da deyim. Axı o da şair Qəribə yepyekə bir xal qazandırdı, onun poetik qələminin "dilini" uzatdı. 1994-cü ildə xalq şairi Məmməd Arazın yaradıcılığı ilə bağlı çoxmövzulu, çox mötəbər bir ədəbi müsabiqə keçirildi. Necə oldusa, qələm dostumuz da dinc durmadı. Nasir Qərib Mehdi bu müsabiqədə şair kimi iştirak etməyi qərara aldı: "Araz - Məmməd Araz" şeiri ilə. Ağzı qapanmamış zərfi poçt işçisinə verdi. Bir ara qutuya qorxa-qorxa məktub salan Novruzəli kimi tərəddüdlə durub baxdı. Sonra ağlına nə gəldisə, hələ üzü möhürlənməmiş zərfi xanım qızdan geri istədi. Axtarıb əl boyda kağız qırığı tapdı. Tərəddüd etmədən oraya bu sözləri yazdı: "Əgər müsabiqədə Məmməd Araz şəxsiyyətinə və sənətinə hörmət, halallıq qorunacaqsa, iştirakçılara qarşı tərəfsizlik gözləniləcəksə, əvvəlcədən deyirəm: şeir üzrə birinci yeri mən tutacağam!" Sən bir inama, qətiyyətə bax! Demə, özünündəkini yaxşı bilirmiş Qərib müəllim. Bir azdan müsabiqənin nəticələri elan olundu. Bu mötəbər şeir yarışının qalibi kim olsa yaxşıdır? (Əslində qaliblərdən biri - Q.M.) Nasir, dramaturq kimi tanıdığımız Qərib Mehdi. Şeir boxçalı nasir sözünə düz çıxdı. Onun şeiri ən yüksək yerə layiq görüldü və bununla da Qərib Mehdi şeir aləminin nəhəngi "Məmməd Araz mükafatı laureatı" kimi çağırılmaq hüququ qazandı". Sonra o da xəstələndi, mən də. Uzun müddət bayıra çıxa bilmədim, işığa çarpayıdan boylanan göz dustağı oldum. Amma onun vəziyyəti daha ağır idi. Xəstəliyimi bəraət üçün önə çəkmədim. O, məni axtarmaq imkanında deyildi. Əli möhürdən, dili hökmdən uzaq düşmüşdü. Telefon zəngləri və dost ayaqlarının sədası sovulmuşdu. "Şümşad" kimi oğlan tanınmaz dərəcədə dəyişmişdi. Hər halda mən onu aramalıydım. Bəlkə də o, heç bunu nəinki məndən, o cümlədən, başqalarından da gözləmirdi: "Qəfil düşdüm bəd taleyin kəməndinə mən; Axır dönüb bu halımla barışan oldum". Tənhalıq onu nəinki sındırmamış, əksinə, daha da müdrikləşdirmişdi. O, hər şeyi öz rəngində daha dəqiq görürdü:

**Mən bu hala gülə bildim, ağlaya bildim,**
**Əhd-ilqar da "baxarıq"lı, "görək"li imiş.**
**Mən ömrümün aşrımında anlaya bildim:**
**Nəçiliyim kimliyimdən gərəkli imiş.**

Şübhəsiz ki, məntiqə görə mən səhv edirdim. Hər necə olsa da, ustad şairlə şəxsən görüşmək, təsəlli vermək, ürəyində yuva salan dərdləri perikdirmək cəhdində bulunmaq lazımıydı. Faydasız olsa da, bunlar mütləq lazımıydı. Ancaq mən bunu bacarmırdım. O Məmməd Arazı ki mən görmüşdüm, başqa bir Məmməd Arazla qabaqlaşmaq istəmirdim. Pardaqlıq fiziki düşkünlüyə təslim olmuşdu. Ona soyuqqanlılıqla baxan gözlər tökülməliydi. Onu bu qiyafədə görmək... Yox, yox, bu hal mənə son dərəcə ağır, üzücü görünürdü. Bax, vəfasızlığımın qəbahəti, qəbahətimin mahiyyəti bundan ibarətiydi. M.Arazın təhlilçiyə iş verən çoxmövzulu, çoxsahəli mürəkkəb və dolğun yaradıcılığı həm dərin, həm bədii cəhətdən kamil, həm də təlqinedicidir. Onun poeziyasının əsas uğuru ideya istiqamətindən asılı olmayaraq, oxucunu səfərbər etməsindədir. O, buna gerçək həyatı obrazlı təfəkkürü ilə dildaşlıq edən qələminin möcüzəsilə nail olurdu. O qələm sözçü yox, sözlü olanda yazır. O qələmin sahibi yazı tərzini belə izah edir:

**Ölə-ölə yazmıram,**
**Yaza-yaza ölürəm.**

Baş mövzusu Azərbaycan olan Məmməd Araz nələri deməyib, nələrə toxunmayıb!.. Parçalı vətənin taleyi, tarixi abidələrin harayı, vətəndaşlıq borcu, dünyanın düzəlməyən işləri, günaha batırılmış, ələ salınmış cəmiyyətlərin tənqidi, təbiətin və insanlığın aşınma təhlükəsi, torpağın gözəlliyi, hər mənada sevgi-məhəbbət duyğuları, sadə, təmiz insanların təbii həyatı, insan itkiləri, mübahisəli sənət məsələləri... O, tarixin çox sorğu-suala tutduğu, "günahına" görə suçlandırdığı Araz çayının sahilində doğuldu. O, iki doğma qardaş, doğma millət, doğma torpaq arasından axan, bu axışla "Şimal" və "Cənub" ünvanlı iki vətən "yaradan" sərhəd çayı Arazı özünə ədəbi və əbədi təxəllüs seçdi. Daha doğrusu, son dərəcə şərəfli və məsuliyyətli bir vəzifənin ağırlığı altına çiyin verdi. Bu təxəllüs yaraşıq naminə götürülməmişdi. Bu təxəllüs hərbi and kimi qəbul edilmişdi. Buna görə də şairin Təbrizli, Arazlı yazıları haray salır, ayıldır, nicat, vüsal gününü müəyyənləşdirməyə çalışırdı. Şairin ömrü boyu Arazla ədəbi rabitəsi kəsilmədi.

**Mən neçə yol danışmışam Arazla...**
**Hansı dildə danışmışam? - Bilmirəm!**
**Quş dilində danışmışam? - Bilmirəm!**
**Daş dilində danışmışam? - Bilmirəm!**
**Mən neçə yol danışmışam Arazla...**

Başqa bir şeirində oxuyuruq:

**Bəlalı başında nə dövlət, nə quş...**
**Təbriz nə istəyir? Təbriz - qurtuluş...**

Bir başqa şeirində məsələ daha ciddi qoyulur:

**Bu gecə yuxumda Arazı gördüm,**
**Arazı belə tox görməmişdim heç.**
**Arazı bəxtindən çox razı gördüm,**
**Üstündən yol atdı: "cəsarətlə keç!".**
**Dedi: sinəsinə çaylar axmasa,**
**Dənizlər itirər dənizliyini.**
**Cəsarət üstündə şahə qalxmasa,**
**Təbriz itirəcək Təbrizliyini...**

Məşhur 60-cı illər ədəbi dövrü cəsarəti olana, millətə, vətənə gərəkli söz deyənə, şöhrət, mükafat, fəxri ad itkisindən təəssüflənməyənə nisbi meydan vermişdi. Köhnə imperiya maşınında getmək istəməyənlərlə, bu maşının sürətinə kömək edənlər az qala üz-üzə dayanmışdılar. Hakimiyyət sovetçilərin, həqiqət isə azad söz təşnəli yenilikçilərin əlindəydi. Nəsillər arasında fars şovinizminə münasibət üst-üstə düşürdü: Cənubi Azərbaycan azad olunmalıdır. Şimali Azərbaycanın da daxil olduğu Sovet səltənətinə isə ikili yanaşma göz qabağındaydı. Cavidlərin, Əhməd Cavadların, Müşfiqlərin qurban yolu azad düşüncəli yeni nəsli qorxutmurdu. Buna baxmayaraq, imperiya hələ çox təhlükəliydi. Oxucu beyninə yeridilən çağırışlar, ayıltmalar dolayı yollarla, sətiraltı mənalarla çatdırılırdı. Qan tökməyə alışan Sovet quruluşu ilə mübarizədə özünümüdafiə imkanları aranıb tapılmalıydı. Əslində, daban-dabana zidd olan iki ideoloji mövqe açıq-gizli şəkildə mübarizəyə girmişdi. M.Arazın səsi yenilikçilərin, azadfikirlilərin cərgəsində daha gur eşidilirdi. Vassal respublikanın azad ruhlu şairi tariximizə saxtakarlıq, ədətimizə sünilik, məfkurəmizə manqurtluq gətirən bir cəmiyyətlə üz-üzə dayanmışdı. Bu cəmiyyətdə yalan doğrunu, rüşvət düzlüyü, asılılıq müstəqilliyi, yadapərəstiş özününanı əyirdi. Qəlbi düzlük, ədalət eşqi ilə alovlanan M.Araz Azərbaycan ziyalısı, yazıçısı, diplomatı, siyasi və dövlət xadimi Nəriman Nərimanovu rus çarını başqa formada əvəzləyən Leninin kölgəsindən daha işıqlı məkana çıxartmağa cəhd edirdi. O, xalqını qəlbən sevən, onun xoşbəxtliyi uğrunda canını əsirgəməyən, lakin inanıb aldanan bir nəhəngi Azərbaycan oxucusuna olduğu kimi göstərmək istəyirdi. "Ədəbiyyat və incəsənət" qəzetində redaktor müavini işləyərkən arzusunu gerçəyə çevirdi. M.Araz ədalətin, həqiqətin, düzlüyün aşiqi, şeydası idi. Bəs nəticəsi nə oldu? O oldu ki, onu cəzalandırıb müavinlikdən uzaqlaşdırdılar. Nəticəsini özü daha gözəl deyir: "Axır məni düzdə qoydu bu düzlük". O, yenə bəlalarımızı, bizi geri qoyan, millətlər içində xar eləyən eyiblərimizi, qüsurlarımızı deməkdən, yazmaqdan çəkinmir, əksinə, daha inadkarlıqla vətəndaşlıq hisslərinə sarılırdı:

**Bax indi pətəyi suya tutulmuş,**
**Arı topasından göynəyəm, bala.**

**(ardı var)**